*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 3* *ISSN: 2663-4406*
*Səhifə: 140-146* *E-ISSN: 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4406.2024.3.140*

# Məhəmməd Füzulinin doğum yeri təzkirələrdə və tədqiqatlarda

**Nüşabə Adgözəlzadə-Rəsulova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: nusabe.adgozel@outlook.com

**Annotasiya.** Bir sıra ədəbi şəxsiyyətlər kimi, böyük Azərbaycan şairi Məhəmməd Füzulinin həyatı ilə bağlı bəzi məqamlar da elm aləmində mübahisəli olaraq qalır. Bunların içərisində şairin doğum yeri və tarixi ilə bağlı fikirlər üstünlük təşkil edir. Məqalədə Füzulinin doğum yeri ilə bağlı məqamlar bu günə kimi yazılmış araşdırmalar və təzkirələr əsasında tədqiqata cəlb edilmişdir. Füzulinin həyatını, yaradıcılığını araşdıran təzkirəçilərdən Lətifi, Əhdi Bağdadi, Qınalızadə Həsən Çələbi, Mustafa Bəyani, Riyazi, Sadiq bəy Sadiqinin təzkirələrində şairin doğum yeri və tarixi haqqında müəyyən qədər məlumatlara rast gəlmək mümkündür. S.Mümtaz, H.Araslı, R.Azadə, F.Köprülü, H.Mazıoğlu, Mir Cəlal, V.Feyzullazadə, Z.Bayramlı və başqa tədqiqatçılar Füzulinin həyat və yaradıcılığına dair araşdırmalar aparmaq üçün yuxarıda sadaladığımız orta əsr təzkirəçilərinin zəngin əsərlərinə istinad etmişlər. Şairin əsərlərində də doğum yeri ilə bağlı bəzi işarələrə rast gəlinir. Tədqiqatda həmin məqamlara da diqqət yetirilmişdir. Təzkirələrə və şairin qeydlərinə əsasən, Füzulinin doğum yerinin Kərbəla olması fikri daha çox üstünlük təşkil edir.
**Açar sözlər.** Füzuli, təzkirə, doğum yeri, Bağdad, Kərbəla

**Məqalə tarixçəsi:** göndərilib – 10.10.2024; qəbul edilib – 24.10.2024

# Mahammad Fuzuli's birthplace in the tazkires and researches

**Nushabe Adgozelzade-Rasulova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: nusabe.adgozel@outlook.com

**Abstract.** Some aspects of the life of the great Azerbaijani poet, Mahammad Fuzuli, like many other literary figures, are contentious issue in the scientific world. The thoughts on poet's place and date of birth are superior among these. In the article the aspects on Fuzuli's birthplace is studied on the basis of researches and tazkires written to date. Fuzuli's life and creativity had been studied by tazkirists such as Latifi, Ahdi Baghdadi, Ginalizade Hasan Chalabi, Mustafa Beyani, Riyazi and Sadig bey Sadigi and some information on poet's place and date of birth can be found in their tazkires. The researchers such as S.Mumtaz, H.Arasli, R.Azade, F.Koprulu, H.Mazioghlu, Mir Jalal, V.Feyzullazade, Z.Bayramli and others approached the rich works of those Medieval tazkirists to cunduct the research on Fuzuli's place and date of birth. Some indications of the place of birth are also found in the poet's works. In the research is paid attention to these aspects, too. The idea that Fuzuli's birthplace was Karbala is more prevalent according to the tazkires and poet's notes.
**Keywords:** Fuzuli, tazkire, birthplace, Baghdad, Karbala

**Article history:** received – 10. 10.2024; accepted − 24.10.2024

## Giriş / *Introduction*

Məlum olduğu kimi, klassik sənətkarların həyat və yaradıcılığı ilə bağlı ilkin məlumatlara təzkirələrdə rast gəlirik. Bu baxımdan klassik sənətkarların həyat və yaradıcılığının öyrənilməsində təzkirələrin rolu olduqca böyükdür.

Təzkirələrdə əsasən bioqrafik xüsusiyyətlər üstünlük təşkil edir və müasir dövrdə "Ədəbiyyat müntəxəbatı" bu işi yerinə yetirir.

Tarixi və ədəbi şəxsiyyətlər haqqında biblioqrafik məlumatların ilkin formaları müxtəlif olmuşdur. Klassik Şərq ədəbiyyatında təzkirələr bu kimi yazı formalarındandır. Ərəbcə "anma", "xatırlama" mənasını bildirən "təzkirə" "zikr" sözündən əmələ gəlmişdir. Təzkirələr ön sözlə başlayır və təzkirəçi Allaha həmd, peyğəmbərə dua etdikdən sonra sözün əhəmiyyətindən, şairliyin uca mərtəbə olmasından danışır. Təzkirələr ədəbi şəxsiyyətlərlə bağlı keçmişdən bu günə kimi gəlib çatan dəyərli tədqiqatlar sayıla bilər. Bu baxımdan orta əsrlər şairlər haqqında bioqrafik əsərlərin yazıldığı dövr kimi də yadda qalır. Hər təzkirə müəllifinin müxtəlif şairlər haqqında özünəməxsus yanaşma tərzi, fikri vardır. Başqa sözlə desək, eyni şair haqqında bir neçə təzkirəçi fərqli məqamlar ortaya qoya bilir.

Məqalədə Füzulinin Bağdad və ya Kərbəla, Nəcəf, Hillədə doğulması ilə bağlı fikirlər bir araya gətirilir. Abbasilər, Hülakilər, Cəlalilər dövründən etibarən zamanla Bağdad və Təbriz arasındakı əlaqələr güclənmiş, Azərbaycanın əsasən şimalından başlayan köçlə məskunlaşma genişlənmişdir. Səfəvilər zamanında isə Bağdadda yaşayan azərbaycanlılar ana dilində yazıb-yaratmağa başlayıblar. Bağdad və ətrafında yaşayan azərbaycanlılar içərisində ən yüksək mərtəbəyə isə Məhəmməd Füzuli çatmışdır.

## Əsas hissə / *Main part*

Həm təzkirələrdə, həm də tədqiqatlarda Füzulinin doğum yeri və tarixi, milliyyəti, həyatının sonları, ölüm səbəbi, ölüm tarixi haqqında müxtəlif məlumatlar vardır. Bu məsələlərə Azərbaycan mühacir ədəbiyyatşünası Səlim Rəfiq Rəfioğlu "Füzuli" monoqrafiyasının birinci yarımfəslində təzkirələr və qaynaqlar əsasında müraciət etmişdir. Alim şairin "Külliyyat"ındakı qeydlərinə əsasən yazır: "Füzulinin kəndi ifadəsinə nəzərən... İraqi-Ərəb hüdudu xaricinə belə çıxmamışdır. "Mənşə və mövludum İraqi-Ərəb olub tamamiyi ömrümdə ğeyr məmləkətlərə səyahət qılmadığıma vaqif olduqda..." [14, s.33] Bu qeydə əsasən deyə bilərik ki, şair yaşadığı ərazini tərk etməmişdir. S.Rəfiqin gəldiyi qənaət A.Qaraxanın qeydləri ilə üst-üstə düşür. Füzulinin doğum tarixinin 900/1495 olması fikrini daha məqbul saydığı kimi, doğulduğu yeri də hər ikisi Kərbəla hesab edir [6, s.72].

Füzulinin bağdadlı olduğu ilə bağlı ilk məlumata Lətifinin "Təzkirətüş-şüəra" təzkirəsində rast gəlinir. Bu təzkirə Füzuli haqqında yazılan ən qədim mənbə hesab olunur. "Füzuliyi-Bağdadi (Bağdadlı Füzuli) – Bu dövrün şairlərindən və şairlərinin fəzilətlərindəndir" [4, s.48]. Lətifi burada şairin "Bağdadlı Füzuli" təxəllüsü ilə şeirlər yazdığını və zamanının fəzilətlilərindən biri olduğunu qeyd etmişdir.

Füzulinin müasiri olmuş Əhdi Bağdadi "Gülşəni-şüəra" təzkirəsində ondan "Mövlana Füzuliyi-Bağdadi" – deyə bəhs etmişdir [4, s.50]. Bu isə Füzulinin bağdadlı olduğu fikrini təsdiqlədiyini bildirir.

Əhdi Bağdadinin Füzuli ilə görüşdüyü təxmin edilir. Şairin ölüm tarixi, ölüm səbəbi, oğlu Fəzli haqqında məlumatlara da Əhdi Bağdadinin təzkirəsində rast gəlirik.

Füzuli haqqında məlumatlar Sam Mirzənin "Töhfeyi-Sami" təzkirəsində də vardır. Sam Mirzə bu təzkirəni 1550-ci ildə fars dilində qələmə almışdır. Təzkirədə müəllif Füzulidən "Mövlana Füzuli" deyə bəhs etmiş və "Darüs-səlam" Bağdaddan olduğunu qeyd etmişdir [4, s.49].

Füzulinin bağdadlı olduğunu göstərən digər bir mənbə də Aşıq Çələbinin "Məşair-üş şüəra" təzkirəsidir. Təzkirədə qeyd edilir ki, Bağdad və Diyarbəkir dərvişləri Füzulinin yazdığı əsərləri oxuyarlarmış. Sultan Süleymanın Bağdada səfəri zamanı Füzuli sultanı ziyarət etmiş, qəsidələr həsr etmişdir. Sultan Süleyman Bağdad vilayətinin və şairin mənafeyi üçün təqaüd ayırmışdır. Fikrimizcə, Aşıq Çələbi Füzulinin Bağdadda doğulmasını faktlarla göstərməsə də, Bağdadda yaşadığını göstərməklə məhz orada doğulduğuna işarə edir.

Füzulinin Hillədə doğulduğu fikrini isə ilk dəfə söyləyən Xınalızadə Həsən Çələbidir [4, s.53]. Şairin Hillədə doğulması qənaəti XVI əsrə aid olsa da, XVII-XVIII əsrlərə aid qaynaqlarda öz təsdiqini tapmamışdır. Həsən Çələbi öz təzkirəsində Füzuli haqqında ətraflı yazır: Fuzuli – müluk-i pişin olan şehr-i İrem-ara ba Firdevs-tezyin (olmaqla bağ-dad olan) Dar-üs-Selam ve Sedad mahmiyye-i aliyye-i Bağdad havalisinde şehr-i Hilledendür [6, s.231]. Ancaq deyə bilərik ki, Bağdad, Hillə və Kərbəla İraq hüdudları daxilində olan yerlər olduğuna görə bu məsələdə ciddi fikir ayrılığı olduğunu iddia etmək də düzgün deyil.

Füzuli haqqında bəhs edən digər qaynaq Mustafa Bəyaninin təzkirəsidir. O da təzkirəsində Füzuli haqqında "Darüs-Səlam-i Bağdaddandır" – deyə söhbət açmışdır [4, s.56]. Müəllif Füzulinin Nəvai tərzində şeirlər yazdığını bildirmiş, ancaq həyatı haqqında ətraflı qeydlər verməmişdir. Bəyaninin təzkirəsində Əhdi Bağdadi, Lətifi, Aşıq Çələbinin əsərlərində olan təkrar məlumatlara yer verilmişdir. Müəllifin özü də Həsən Çələbinin yazdıqlarını xülasə halına salaraq təzkirəsini ərsəyə gətirdiyini qeyd etmişdir.

Füzulinin Kərbəlada dünyaya gəldiyini ilk olaraq XVII əsr təzkirəçilərindən Riyazi söyləmişdir. "Riyazüş-şüəra" təzkirəsində Füzulinin Bağdad vilayətində, Kərbəlada dünyaya gəlməsi qeyd edilir. Bildiyimiz kimi, Bağdad böyük ərazini əhatə edən vilayətdir. Digər təzkirəçilərin qeydlərində Füzulinin doğum yeri ümumi şəkildə Bağdad kimi göstərilir. Riyazi aşağıdakı bəndi təzkirəsində qeyd etməklə, Kərbəlada doğulması fikrini təsdiqləyir:

چون خاك كربلاست فضولى مقام من
نظمم بهر كجا كه رود حرمتش رواست
زرنيست سيم نيست كهر نيست لعل نيست
خاكست شعر بنده ولى خاك كربلاست [6, s.247]

Poetik tərcüməsi:

*Ey Füzuli, məskənim çün Kərbəladır, şerimin*
*Hörməti hər yerdə vardır, xəlq onun müştağıdır.*
*Nə qızıldır, nə gümüş, nə ləl, nə mirvaridir,*
*Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır.* [13, s.20]

Türk alimi Hasibə Mazıoğlu şeirdə işlənən *"məskənim Kərbəladır"* ifadəsindəki *"məskən"* sözündən *"mövlud"* anlamını çıxarmağı düzgün hesab etmir və şairin Kərbəlada yaşamasının orada doğulması ilə əlaqəsi olmadığını bildirir [10, s.9].

Digər təzkirə müəllifi Əlinin "Künhül-əxbar" təzkirəsində Mövlana Füzulinin doğum yerinin Bağdad olduğu qeyd edilir [4, s.57]. Müəllif Şərq ölkələrində türkcə şeir söyləyənlərin ustadı olduğunu da vurğulamış, onun digər əsərləri kimi, "Rindü Zahid", "Bəngü-Badə", "Səhhət və Mərəz", "Leyli və Məcnun"un adını qeyd etmiş və onların tərifəlayiq yaradıcılıq nümunələri olduğunu bildirmişdir.

Türk alimi M.F.Köprülü Şəhabəddin Süleymanla birlikdə ərsəyə gətirdiyi tədqiqində Füzulinin Hilləli olduğunu yazmışdır [7, s.67]. M.F.Köprülü şairin ərəbcə yazdığı qəsidənin

*Dilin şirindir, o mənalı gözlərin sehirli,*
*Vətənmi Babil olubdur sənə, sən Hilləlisən?*

– beytini əsas gətirərək şairin Hilləli olmasını vurğulayır. Ancaq tərcüməçi M.Mübariz M.F.Köprülünün müraciət etdiyi beyti Azərbaycan dilinə – "*Vətənmi Babil olubdur sənə, sən halvaçısan?"* – şəklində tərcümə etmişdir [11, s.302]. Daha sonra M.F.Köprülü "Füzuli Külliyatı" müqəddiməsində XVII əsr təzkirəçilərindən Riyazinin təzkirəsinə istinadən Füzulinin kərbəlalı olduğunu qeyd edib [4, s.59].

Azərbaycan şairləri haqqında əvəzsiz irs, dəyərli qaynaq sayılan digər mənbə Sadiq bəy Əfşarın "Məcməül-Xəvas" təzkirəsidir. Bu təzkirədə Məhəmməd Füzuli haqqında məlumatlar qeyd edilib. Əsər Mir Əlişir Nəvainin yazdığı "Məcalisün-Nəfais" adlı təzkirəsi üslubunda və təxminən h. 1007-1008 (m. 1597-1598)-ci illərdə ciqatay türkcəsində yazılmışdır. Müəllif təzkirədə Füzulidən "Mövlana Füzuli" – deyə bəhs edir, ona olan heyrətini bildirməyi də unutmur. Həqiqətən, heç kəsə belə bir istedad səadəti üz verməyib ki, türk, fars və ərəb kəlamını bu səviyyədə bilsin.

Orta əsrlərə aid bəzi təzkirələrdə "Füzuli Bağdadi" kimi təqdim edilən şairin, Oğuz türklərinin Bayat boyuna mənsub olduğu qeyd olunur. Füzulinin əslən Kərkükün Bayat boyundan olduğuna dair məlumat M.Məzhar Akyiğirin bir məqaləsində də vardır [9, s.2]. Müəllifin bu qənaətə necə gəldiyi, hansı mənbəyə əsaslandığı isə bəlli deyil.

Həmçinin Sadiq bəy Sadiqi də "Məcməül-Xəvas" əsərində şairin Bayat elindən, prof. Krımski isə "Türk ədəbiyyatı tarixi" əsərində onun Azərbaycandan olduğunu qeyd etmişdir [16, s.354]. Buna əlavə olaraq qeyd edə bilərik ki, şair "Hədiqətüs-süəada" əsərində ana dilinin türkcə olduğunu bildirmişdir:

*Ey feyzrəsani-ərəbü türkü əcəm,*
*Qıldun ərəbi əfsəhi-əhli-aləm,*
*Etdün füsəhayi-əcəmi İsadəm,*
*Bən türkzəbandan iltifat eyləmə kəm.* [12, s.31]

Sadiqi Məhəmməd Füzulinin yaradıcılığı ilə ətraflı maraqlanmış, "Məcməül-Xəvas"da onun əsərlərini oxuduğunu qeyd etmişdir. Sadiqinin təzkirəsindəki qeydlərdə həm də Füzulinin nə bağdadlı, nə də hilləli olması, bu ərazilərə isə bəzi səbəblərə görə gəldiyini isbat edəcək sübutlar vardır: "İbrahim Xan xidmətində Bağdada çatıb mərhum xan Sultan Süleyman Xidavəndigara (Xunkara) xidmət edib İraqa girdikdə yuxarıda haqqında danışılan Mövlananı Hillədə, buranı özünə vətən edən görürlər" [4, s.58]. Qeydlərdən belə nəticəyə gəlmək olur ki, Füzulini Səfəvi nümayəndəsi İbrahim xan Bağdada gətirmiş, Osmanlı hökmdarı Sultan Süleymanın 1534-cü il Bağdad səfəri müddətində də şair Hillədə olmuş, özünə buranı yurd seçmişdir.

A.Qaraxan "Füzuli: mühiti, həyatı və şəxsiyyəti" yazısında prof. Ali Nihad Tərlanın Bursa şəhərində konfransda səsləndirdiyi çıxışına istinadən "Hillədə mutavatın olur kaydı onun Hillede doğmadığını bize bildiriyor. Çünkü tavatun, sonradan bir yeri vatan edinmek demekdir" [6, s.69]. Görünür, Qaraxan da Ali Nihad Tərlanın Hillədə bir müddət yaşaması onun Hillədə doğulması mənasına gəlmədiyi qənaəti ilə razıdır. Alimin gəldiyi qənaət isə bu istiqamətdədir: "Şair türkcə və farsca divanlarının müqəddiməsində Kərbəlada doğulduğunu bildirdiyinə görə, hər şeydən əvvəl, bu ifadəyə dəyər verməyə və inanmağa məcburuq" [6, s.70].

Azərbaycan alimlərindən H.Araslının da Füzulinin doğum yeri ilə bağlı fikirləri vardır. Alim şairin həyatı haqqında olan rəvayətlərə toxunaraq qeyd edir ki, bunlar heç bir fakta əsaslanmır,

"tarixi sənədlə təsdiq edilmir" [1, s.99]. Alimin fikrincə, şairin yazdığı əsərlər onun Kərbəlada doğulduğunu göstərir. Tədqiqatçı şairin farsca divanının müqəddiməsində yazdığı "doğulduğum və yaşadığım İraqi-Ərəb sultanların kölgəsindən uzaq qalmış və sakinlərinin bişüurluğundan abad olmayan bir ölkədir" sətirlərindən çıxış edərək Kərbəlada anadan olması fikrinin üzərində dayanır.

Şairin həyatı və yaradıcılığını əhatəli və müfəssəl şəkildə araşdıran alimlərdən biri də Vəcihə Feyzullayevadır. Onun fikrincə, şair yaşadığı dövrün romantik rəng çalarları ilə təsvir etdiyi güzgüsüdür. Alim şairin Kərbəlada doğulduğunu və onun ətrafındakı şəhərlərlə sıx bağlı olduğunu yazır [5, s.30]. Farsca divanının qitəsindəki – "Ey Füzuli məskənim çün Kərbəladır" misrası ilə başlayan beytinə əsasən onun Kərbəlada doğulub, Kərbəlanın suyu və havası ilə yetişdiyini düşünür. Şairin divanlarına yazdığı müqəddimələrinin Kərbəla ilə əlaqəli olmasından söz açır və Füzulini tədqiq edən alimlərin böyük əksəriyyətinin bu qənaətdə olmasını vurğulayır. Füzulinin farsca divanının dibaçəsində yaşadığı yerin İraqi-Ərəb olması haqqında bu nümunəni də doğum yerinin Kərbəla olmasına fakt kimi verir: "Ümiddir ki, ərbabi-fəsahət və əshabi-bəlağət müşahidə və mütaliə qıldıqda, mənşə və mövlidim İraqi-Ərəb olub, təmamiyi-ömrdə ğeyr məmləkətlərə səyahət qılmadığımdan vaqif olduqda, bu illəti mucibi süquti-etibar bilməyələr. Lillahil-həmd vəlminnə ki, xaki-Kərbəla sair məmalik cövhərindən əşrəf olduğu məlumdur" [13, s.6].

Tədqiqatçılardan Z.Bayramlı "Füzulinin Kərbəla şəhərində anadan olduğu daha çox ağlabatandır" – fikrini müdafiə edir. Qaynaqların bəzilərində Füzulinin Oğuz türklərinin Bayat boyuna aid olduğu kimi, Ağqoyunlu türkmanlarından olduğunu qeyd edənlər də var. Buna əsasən də tədqiqatçı, şairin atası Süleyman kişinin mənşəcə Azərbaycandan olduğunu və öz elatıyla İraqa köçüb Bağdad civarında yerləşdiyini qeyd edir [2, s.5]. Z.Bayramlı şairin fars divanının dibaçəsində yazdığı qitəyə istinadən kərbəlalı olduğunu və orada doğulduğunu təsdiqləyir. Şairin yaradıcılığı müddətində İraqın Bağdad, Hillə, Kufə şəhərlərində məskunlaşması, ilk təhsilini Kərbəlada aldıqdan sonra Bağdadın elm ocaqlarında uzun müddət (əlli ildən çox) çalışması bizlərə məlumdur. Əsərlərindən şairin bütün ömrü boyu İraqi-ərəbdən kənara çıxmadığı bəlli olur [13, s.17].

Azərbaycan alimlərindən A.Rüstəmova, Ə.Səfərli də Füzulinin doğum yerinin Kərbəla olduğu qənaətindədirlər.

İtalyan şərqşünası Bombaçi ingilis şərqşünası Çarlz Riyonun Britaniya əlyazmaları kataloqundakı Həsən Xınalızadənin qeydlərindəki şairin Hilləli olması fikri ilə ingilis şərqşünası Gibbin fikirlərinin üst-üstə düşdüyünü qeyd edir. Daha sonra K.Ədibin "Füzulinin bilinməyən bir qəsidəsi" adlı əsəri yazan araşdırıcının da şairin Hilləli olduğu fikrini müdafə etdiyini bildirir. Bombaçi türk alimi Qaraxanın İslam Ensiklopediyasının II nəşrində Füzuliyə həsr etdiyi məqalədə şairin doğum yeri ilə bağlı dəqiq qənaətinin olmaması, İraq və ya Kərbəla, Bağdad, Hillə, Nəcəf, Kərkük, Mənzil və hətta doğum yerinin Hit də ola biləcəyi fikrini qeyd etdiyini yazır.

Bombaçi şairin farsca divanında olan qəsidəyə istinadən bildirir ki, Füzuli Hillədə, Kərbəlada və İraqda yox, məhz Nəcəfdə doğulmuşdur. İmam Əliyə həsr edilmiş farsca bu qəsidədə İmam Əlinin qəbrinin Nəcəfdə olduğu və şairin ömrünün əvvəlindən sonuna kimi buranı özünə mənzil kimi göstərir. Bu isə tədqiqatçıda şairin Nəcəfdə doğulması fikrini yaradır:

شکر الله ز ایتدای عمر تا غایت مرا
روضهة خاک در شاه ولایت منزل است
ساحلی دارم چو در پای نجف بهر نجات
غم ندارم ز انک گرداب حوادث مائل است [3, s.99]

*(Allaha şükür olsun ki, ömrümün əvvəlindən sonuna qədər*
*Vilayət şahının (İmam Əli (ə)) qəbrinin torpağı mənə mənzildir.*
*Nicat üçün Nəcəf dəryası tək sahilim vardır.*
*Ona görə də hadisələrin qorxunc burulğanından qəmim yoxdur.)*

Bombaçiyə görə, Füzuli ədəbi fəaliyyətinə Nəcəfdə başlasa da, Kərbəlada yaradıcılığını davam etdirmişdir və Bağdadda yetkinlik çağına çatmışdır [3, s.99].

Polyak alimi Stanislava Plyaskovitska-Rımkeviçin fikrincə, Füzulinin həyatına dair bəzi faktlar artıq daha dəqiqlik qazanmışdır. Buna şairin doğulduğu yerin hara olması da daxildir. Stanislava da şairin Kərbəlada dünyaya göz açdığını vurğulayır və onun kürd olduğunu israrla təkid edən E.V.Gibbin əksinə türk əsilli olmasını bu fikirlərilə qeyd edir – "şairin türk dilini doğma dili hesab etməsinə dair etirafı onun türk mənşəyini təsdiqləyir" [15, s.38]. Alim digər versiyaları təhlil etmədən araşdırmasına qətiyyətlə Füzulinin Kərbəlada dünyaya göz açması ilə başlayır. Həmçinin şairin öz sözlərinə istinad edərək onun bütün həyatı boyu İraqi-Ərəbdə yaşadığını yazmışdır.

## Nəticə / *Conclusion*

Beləliklə, bütün təzkirələrdə şairin doğum yerinin Bağdad vilayəti yazıldığını görürük. Məqalədə də qeyd etdiyimiz kimi, Bağdad böyük vilayətdir və doğum yeri kimi məhz oranı qeyd etmək dəqiq olmazdı. Bütün bu ehtimallara nəzər salanda da, türkcə və farsca divanlarının müqəddimələrində qarşılaşdığımız məlumatlarla digər nümunələri müqayisə etdiyimiz zaman gəldiyimiz nəticə odur ki, şairin Kərbəlada doğulması faktı daha çox reallığı əks etdirir.

## Ədəbiyyat / *References*


1. Araslı, H. Böyük Azərbaycan şairi Füzuli. IV kitab. – Bakı: Elm, 2024.
2. Bayramlı, Z. Füzuli...və... – Bakı: Elm və təhsil, 2018.
3. Bombaci, A. The place and Date of Birth of Fuzuli. İran and Islam. Cambridge, 1972.
4. Əliyeva-Kəngərli, G. Azərbaycan füzulişünaslığının əsasları. – Bakı, 2009.
5. Feyzullayeva, V. Füzulinin ömür yolu. – Bakı: Nurlan, 2005.
6. Karahan, A. Fuzuli muhiti, hayatı ve şahsiyeti. – Ankara,1989.
7. Köprülü, M.F ve Şahabettin Süleyman. Osmanlı tarih ve edebiyatı. – İstanbul, 1332 (h.).
8. Köprülü, M.F. Fuzuli Divanı Mukaddimesi. – İstanbul, 1924.
9. Mazhar A. Fuzuli için vakit gazetisi. Sayı: 9647, birinci kanun –1944.
10. Mazıoğlu, H. Fuzuli Üzerine Makaleler, 1997.
11. Məhəmməd, F. Əsərləri. Altı cilddə, IV c. (Tərtib edəni: H.Araslı). – Bakı, Şərq-Qərb, 2005.
12. Məhəmməd, F. Əsərləri. Altı cilddə, VI c (Tərtib edəni: H.Araslı). – Bakı, Şərq-Qərb, 2005.
13. Məhəmməd. F. Əsərləri. Altı cilddə, III c. (Tərtib edəni: H.Araslı). – Bakı, Şərq-Qərb, 2005.
14. Refioğlu, S.R. Füzuli. İstanbul Universitesi. Edebiyat Fakültesi, doktora tezi. – İstanbul, 1942-1945.
15. Rımkeviç, S.P. Məhəmməd Süleyman oğlu Füzuli (həyat və yaradıcılığının tədqiqi). – Bakı: Elm və Təhsil, 2024.
16. Tərbiyət, M. Danişməndani-Azərbaycan. – Bakı, Azərnəşr, 1987.

# О месте рождения Мохаммеда Физули в тезкире и исследованиях

**Нушабе Адгёзалзаде-Расулова**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: nusabe.adgozel@outlook.com

**Резюме.** Некоторые факты, связанные с жизнью великого азербайджанского поэта Мохаммеда Физули, как и многих других творческих личностей, остаются предметом спора в научных кругах. Основным из них являются предположения относительно истории и места рождения поэта. В статье относительно места рождения Мохаммеда Физули к рассмотрению привлечены факты, основанные на тезкире и написанных до настоящего времени исследованиях. В тезкире поэтов Латифи, Ахди Багдади, Гасан Челеби Гыналызаде, Мустафа Бейани, Рийази, Садыг бек Садиги, исследующих жизнь и творчество Физули, можно встретить некоторые сведения о месте рождения и истории поэта. К ценным произведениям перечисленных выше средневековых мастеров тезкире обращались С.Мумтаз, Г.Араслы, Р.Азаде, Ф.Кёпрюлю, Г.Мазыоглу, Мир Джалал, В.Фейзуллазаде, З.Байрамлы и др. для проводимых исследований о жизни и творчестве Физули. В произведениях и самого поэта можно встретить некоторые указания о месте его рождения. На них привлечено внимание в данном исследовании. Основываясь на тезкире и упоминаниях самого поэта, приоритетным является довод о месте рождения Физули в г.Кербела.
**Ключевые слова:** Физули, тезкире, место рождения, Багдад, Кербела